**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ**
**NAZİRLƏR KABİNETİ**

# Q Ə R A R

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin “Naxçıvan Muxtar Respublikasında peşə təhsili üzrə ixtisasların siyahılarının və tədris planlarının təsdiq edilməsi haqqında” 2016-cı il 25 avqust tarixli 83 nömrəli, “Naxçıvan Dövlət Texniki Kollecinin, Naxçıvan Şəhər Peşə Liseyinin, Şərur Texniki Peşə və Sürücülük Məktəbinin, Ordubad Texniki Peşə və Sürücülük Məktəbinin və Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin ştat cədvəllərinin təsdiq edilməsi və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 16 dekabr tarixli 107 nömrəli Qərarı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı”nda dəyişiklik edilməsi barədə” 2016-cı il 17 sentyabr tarixli 94 nömrəli, “Naxçıvan Muxtar Respublikasında elmi və elmi-pedaqoji fəaliyyət sahəsində çalışan elmi dərəcəsi və elmi adı olan şəxslərin vəzifə maaşlarına elmi dərəcələrə və elmi adlara görə ödənilən əlavələrin məbləğinin müəyyən edilməsi haqqında” 2017-ci il 6 iyul tarixli 66 nömrəli, “Naxçıvan Muxtar Respublikasında baza maliyyələşdirilməsinin subyektləri olan elmi müəssisə və təşkilatların Siyahısı”nın təsdiq edilməsi haqqında” 2018-ci il 12 yanvar tarixli 5 nömrəli, “Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” 2019-cu il 3 iyun tarixli 70 nömrəli qərarlarında dəyişiklik edilməsi və “Çətin həyat şəraitində hesab edilmənin əsasları üzrə şəxsin (ailənin) çətin həyat şəraitində olmasını təsdiq edən sənədlərin Siyahısı”nın təsdiq edilməsi barədə” 2013-cü il 1 iyul tarixli 66 nömrəli, “Naxçıvan Muxtar Respublikasının Dövlət Toxum Fonduna toxumun tədarükü, saxlanılması və istifadəsi Qaydaları”nın təsdiq edilməsi haqqında” 2016-cı il 18 yanvar tarixli 4 nömrəli, “Naxçıvan Muxtar Respublikasında bilik və bacarıqlarının qiymətləndirilməsi aparılmış dövlət ilk peşə təhsili müəssisələrində**

**idarəetmə, təhsil və təlim fəaliyyəti ilə məşğul olan işçilərin aylıq vəzifə maaşları sxeminin və məbləğlərinin təsdiq edilməsi haqqında" 2018-ci il 15 mart tarixli 46 nömrəli, "Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ali təhsil müəssisələrinin hazırlıq qruplarında tədrisin təşkili Qaydası"nın təsdiq edilməsi haqqında" 2019-cu il 1 avqust tarixli 104 nömrəli, "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində psixoloji xidmətin təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında" 2020-ci il 2 iyun tarixli 96 nömrəli və "Naxçıvan Muxtar Respublikasının ümumi təhsil müəssisələrində peşəyönümü xidmətinin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi barədə" 2020-ci il 2 iyun tarixli 99 nömrəli qərarlarının ləğv edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 134-cü maddəsinin IV hissəsini və Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 39-cu maddəsinin I hissəsinin yeddinci abzasını rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Naxçıvan Muxtar Respublikasında peşə təhsili üzrə ixtisasların siyahılarının və tədris planlarının təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 25 avqust tarixli 83 nömrəli Qərarının 2-ci hissəsi ləğv edilsin.

2. "Naxçıvan Dövlət Texniki Kollecinin, Naxçıvan Şəhər Peşə Liseyinin, Şərur Texniki Peşə və Sürücülük Məktəbinin, Ordubad Texniki Peşə və Sürücülük Məktəbinin və Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin ştat cədvəllərinin təsdiq edilməsi və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 16 dekabr tarixli 107 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 17 sentyabr tarixli 94 nömrəli Qərarının 1-ci hissəsi ləğv edilsin.

3. "Naxçıvan Muxtar Respublikasında elmi və elmi-pedaqoji fəaliyyət sahəsində çalışan elmi dərəcəsi və elmi adı olan şəxslərin vəzifə maaşlarına elmi dərəcələrə və elmi adlara görə ödənilən əlavələrin məbləğinin müəyyən edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2017-ci il 6 iyul tarixli 66 nömrəli Qərarının 1-6-cı hissələri ləğv edilsin.

4. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 12 yanvar tarixli 5 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında baza

maliyyələşdirilməsinin subyektləri olan elmi müəssisə və təşkilatların Siyahısı”nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1-ci və 5-ci hissələr ləğv edilsin;

4.2. 2.1-ci bənddə “Araz” Elm-İstehsalat Birliyi” sözləri “Naxçıvan Kənd Təsərrüfatı Elmi-Tədqiqat İnstitutu” sözləri ilə əvəz edilsin.

5. “Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 3 iyun tarixli 70 nömrəli Qərarının 1-ci hissəsi ləğv edilsin.

6. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin aşağıdakı qərarları ləğv edilsin:

6.1. “Çətin həyat şəraitində hesab edilmənin əsasları üzrə şəxsin (ailənin) çətin həyat şəraitində olmasını təsdiq edən sənədlərin Siyahısı”nın təsdiq edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2013-cü il 1 iyul tarixli 66 nömrəli Qərarı;

6.2. “Naxçıvan Muxtar Respublikasının Dövlət Toxum Fonduna toxumun tədarükü, saxlanılması və istifadəsi Qaydaları”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 18 yanvar tarixli 4 nömrəli Qərarı;

6.3. “Naxçıvan Muxtar Respublikasında bilik və bacarıqlarının qiymətləndirilməsi aparılmış dövlət ilk peşə təhsili müəssisələrində idarəetmə, təhsil və təlim fəaliyyəti ilə məşğul olan işçilərin aylıq vəzifə maaşları sxeminin və məbləğlərinin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 15 mart tarixli 46 nömrəli Qərarı;

6.4. “Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ali təhsil müəssisələrinin hazırlıq qruplarında tədrisin təşkili Qaydası”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 1 avqust tarixli 104 nömrəli Qərarı;

6.5. “Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində psixoloji xidmətin təşkili Qaydaları”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 2 iyun tarixli 96 nömrəli Qərarı;

6.6. “Naxçıvan Muxtar Respublikasının ümumi təhsil müəssisələrində peşəyönümü xidmətinin həyata keçirilməsi Qaydası”nın təsdiq edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 2 iyun tarixli 99 nömrəli Qərarı;

7. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, “ 27 ” mart 2024-cü il

№ 28